

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 100 (21.510)

*2 iyun 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" Sərgi və Konfransının, həmçinin VI Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisinin açılışında iştirak edib.

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" Sərgisi Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilir. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 240 şirkət iştirak edir. Bütövlükdə sərginin ekspozisiya sahəsinin 63,7 faizini xarici iştirakçılar tutur. VI Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji Sərgisi Xəzəryanı regionun enerji səmərəliliyi və bərpa olunan enerji sahəsində yeganə ixtisaslaşmış tədbiridir.

Azərbaycan Prezidenti İlham Əliyev sərgi-konfransda nitq söyləyib.

Sonra Prezident İlham Əliyev sərgilərlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi Baronessa Nikolsonu qəbul edib.




## Naxçıvan tarixi ilə bağlı ölkə arxivlərində yeni sənədlər aşkar edilmişdir





İyunun 1-də Naxçıvan tarixi ilə bağlı ölkə arxivlərində aşkar olunan yeni sənədlər Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov çıxış edərək Naxçıvanda bütün sahələrdə olduğu kimi, arxiv işinin yaxşılaşdırılması sahəsində də mühüm tədbirlərin görüldüyünü bildirmiş, muxtar respublika tarixinin araşdırılmasına, eləcə də arxiv işinin daha da yaxşılaşdırılmasına göstərilən diqqət və qayğıdan danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Arxiv sənədləri aid olduğu dövrün tarixini yaşadır, bu tarixi gələcək nəsillərə ötürür. Hər bir ölkənin, xalqın tarixi ilə bağlı araşdırma aparılarkən, ilk növbədə, arxiv sənədlərinə istinad olunur. Muxtar respublikada arxiv işinin təşkili sahəsində həyata keçirilən tədbirlər də bu məqsədə xidmət edir. Son illər muxtar respublikada arxiv işinin təşkili sahəsində bir sıra tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin binası əsaslı şəkildə yenidən qurulmuş, yeni avadanlıqlarla təmin olunmuş, şəhər və rayon arxivləri üçün müasir iş şəraiti yaradılmışdır.

Ali Məclisin Sədri demişdir: Gələcəyimizi təmin etmək üçün keçmişimizi qorumalıyıq, tariximizi arxiv sənədlərində gələcək nəsillərə çatdırmalıyıq. Lakin bu sahədə həyata keçirilən tədbirlərə və yaradılan şəraitə baxmayaraq, muxtar respublikada arxiv işi hələ də tələb olunan səviyyədə qurulmayıb. Arxiv işinə ciddi diqqət yetirilməli, hər bir əməkdaş öz vəzifə məsuliyyətini öyrənməlidir.

Muxtar respublikada arxiv işi sahəsində fəaliyyətin düzgün təşkil olunmamasına görə idarənin rəisi Fəxrəddin Cəfərova xəbərdarlıq olunmuşdur.

Sonra Ali Məclisin Sədri yeni gətirilən sənədlərə baxmışdır.

Məlumat verilmişdir ki, Azərbaycan Respublikası Dövlət Arxivində, Dövlət Tarixi Arxivində, Dövlət Kino-Foto Sənədləri Arxivində, Dövlət Səs yazıları Arxivində, Ədəbiyyat və İncəsənət Dövlət Arxivində və Milli Arxiv İdarəsinin elmi məlumat kitabxanasında araşdırmalar aparılmış, muxtar respublikanın tarixi ilə bağlı 88 sənəd aşkar edilərək 1245 vərəqənin surəti çıxarılmışdır. Bu sənədlər içərisində Kalbalı xan Naxçıvanskiyə, Kərim xan İrəvanskiyə, Murad xan Naxçıvanskiyə aid, eləcə də 1828-ci ildən 1917-ci illərə kimi Naxçıvanın tarixi ilə bağlı müxtəlif fondlardan aşkar edilmiş sənədlərin, Naxçıvanın 1921-ci ildə tərtib olunmuş inzibati ərazi bölgüsünün xəritəsinin, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, elmi və mədəni həyatını əks etdirən müxtəlif tarixi dövrlərə aid sənədlərin surətləri vardır. Naxçıvanlı ədiblərin, dövlət və elm xadimlərinin şəxsi fondları araşdırılarkən dəyərli məktublardan, nadir fotoşəkillər və əlyazmalardan ibarət 1462 vərəqənin və fotoşəkillərin də surətləri çıxarılmışdır.

Sənədlər içərisində ümummilli lider Heydər Əliyevin 1974, 1978, 1980, 1982-ci illərdə Naxçıvana səfərləri ilə bağlı fotoşəkillər və kinolentlər də vardır. Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının yaranmasının 50 illiyi münasibəti ilə Naxçıvan şəhərinə səfəri, onun dəmir yolu vağzalında qarşılanması, Naxçıvanda sənaye və tikinti müəssisələrində olarkən çəkilən fotoşəkilləri xüsusi maraq doğurur.

Ali Məclisin Sədri ölkə arxivlərində aparılan araşdırmaların davam etdirilməsi, Naxçıvan xanlığının tarixi ilə bağlı arxiv sənədlərinin üzə çıxarılması və aşkar olunmuş yeni sənədlərin tədqiq olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Avtomobil yolu yenidən qurulur



***Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri yol infrastrukturunu da əhatə edib. Son illər bütün yaşayış məntəqələrində müasir avtomobil yolları salınıb, avtomobillərin rahat hərəkəti təmin edilib. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq hazırda Naxçıvan-Ordubad magistralından Culfa şəhərinə qədər olan avtomobil yolu yenidən qurulur.***

Yolun yenidən qurulmasına cari ilin aprel ayının sonundan başlanılıb. Qısa müddətdə "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən Bayraq Meydanından Culfa şəhərinədək uzunluğu 2 kilometr olan avtomobil yolunun asfalt örtüyü götürülüb, yol yatağı genişləndirilərək 10 metrə çatdırılıb. Hazırda yol yatağında bərkitmə işləri aparılır, avtomobil yolu üzərindəki körpü yenidən qurulur. Həyata keçirilən tədbirlərin növbəti mərhələsində yol kənarları abadlaşdırılacaq, piyadaların hərəkəti üçün səkilər salınacaq, müasir işıqlandırma sistemləri quraşdırılacaqdır.

Avtomobil yolunun yenidən qurulması Culfa şəhərinə və əks istiqamətdə piyadaların və avtomobillərin təhlükəsiz hərəkətini, həmçinin rahatlığını təmin edəcək.

## Smartkarttipli sayğacların quraşdırılması davam etdirilir

***Bir vaxtlar saatlarla, günlərlə təbii qaza və elektrik enerjisinə həsrət qalan muxtar respublikamızda bu problem, neçə illərdir ki, öz həllini yüksək səviyyədə tapıb. Bu gün isə yeni texnologiyaların tətbiqi günün reallığına çevrilib.***

Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılması naxçıvanlılar tərəfindən onlara göstərilən daha bir qayğı kimi dəyərləndirilir. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin elektrik enerjisi və təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən aldığımız məlumata görə, ötən ilin iyul ayından ilkin olaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, "Təbriz", Atatürk, "İstiqlal" küçələrində, "Çənlibel", "Qoçüstü" məhəllələrində, Əliabad qəsəbəsində və digər ünvanlarda yerləşən təmir edilmiş ictimai yaşayış binaları yeni sayğaclarla təchiz olunub. İndiyədək 10 min 400-dən çox sayğac quraşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması da davam etdirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən aldığımız məlumata görə, indiyədək Naxçıvan şəhərində 9800-dən artıq sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi də diqqətdə saxlanılıb. Bu məqsədlə qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilərək quraşdırılır.

**Xəbərlər şöbəsi**




## 2 iyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günüdür

# Muxtar respublikada hava nəqliyyatının inkişafına diqqət yetirilir

***1938-ci il iyunun 2-də Azərbaycanda ilk aviasiya qrupu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən həmin tarix hər il ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmışdır. Ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. 1976-1980-ci illər üçün Azərbaycanda Mülki Aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün qalxma-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsi ilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bunu nəzərə alan ulu öndər hava limanının yenidən qurulması barədə qərar qəbul edərək 2002-ci il avqustun 11-də bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirmişdir. 2002-ci ilin oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, eləcə də muxtar respublikada aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılmış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir.



Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını müasir inkişaf mərhələsinə çıxarmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2014-cü ildə hava limanının yeni inzibati binası və 2015-ci ildə “Şərq Terminalı” istifadəyə verilmişdir. “Şərq Terminalı”nda Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Beynəlxalq Aviasiya Nəqliyyat Assosiasiyasının tələblərinə cavab verən, Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş ən müasir texnologiyalardan, uçuşların və aviasiya təhlükəsizliyini təmin edən avadanlıqlardan istifadə olunmuşdur. “Şərq Terminalı”nın 1-ci mərtəbəsi uçuşa gedən sərnişinlərin qeydiyyatı və gələn sərnişinlərin çıxışı, baqajların alınması üçün nəzərdə tutulub. Binada əsas korpusa birləşdirilən keçid körpülər, teleskopik traplar, 2 ədəd eskalator və 2 lift quraşdırılmışdır. Kompleksin 2-ci mərtəbəsi isə uçuşa gedən sərnişinlərə xidmət edir. Bu mərtəbədə sərnişinlərin sərhəd nəzarəti, tranzit sərnişinlər üçün zal, aviasiya təhlükəsizliyi nəzarəti sahələri fəaliyyət göstərir. Müasir görünüşü ilə diqqəti cəlb edən yeni dizaynlı aerovağzalda sərnişinlərə xidmət yüksək tələblər səviyyəsində aparılır. Aerovağzal kompleksinin yenidənqurma işləri çərçivəsində “Qərb Terminalı”nda da tikinti-quraşdırma işləri sürətlə davam etdirilir. Bu layihə illik sərnişin və yükdaşıma dövriyyəsinin artırılmasına tam şərait yaradacaqdır.

Müasir infrastrukturun yaradılması və xidmət sahələrinin genişləndirilməsi ixtisaslı kadrlara və mütəxəssislərə olan tələbatı da artırır. Hava limanında bu məsələ diqqətdə saxlanılır, müasir xidmət tələblərinə cavab verən gənclər işə götürülür, əməkdaşların peşəkarlıq səviyyəsi artırılır. Həmçinin daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava gəmilərinə texniki xidmət və başqa bu kimi sahələrin əməkdaşlarının Milli Aviasiya Akademiyasının Aviasiya personalının hazırlığı mərkəzində təşkil olunmuş ixtisasartırma kurslarında iştirakı təmin olunur.

Hava nəqliyyatı sisteminin inkişafına xüsusi diqqət göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlərin əsas məqsədi sərnişinlərin rahatlığını təmin etməkdir”***. Naxçıvan Muxtar Respublikasında sərnişinlərə hava nəqliyyatı xidməti təşkil edilmiş, Ordubad və Şərur şəhərlərində yeni aviakassa binaları tikilib istifadəyə verilmişdir. Hər iki binada ən yeni texnoloji avadanlıqlar quraşdırılmış, qabaqcıl idarəetmə sistemi yaradılmış, sakinlərin rahatlığı təmin olunmuşdur.

Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri ilə Bakı və Gəncə şəhərlərinə, beynəlxalq hava xətləri ilə isə Moskva və İstanbul şəhərlərinə uçuşlar həyata keçirilir. Bundan sonra da uçuşların təhlükəsizliyinin təmin olunması və sərnişinlərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılacaqdır.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

---

# “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin ixrac potensialı artıb

## “Badamlı” dünya bazarının mühüm mərkəzlərindən biri olan Dubayda satışa çıxarılıb

***“Mineral suların təbii muzeyi” adlandırılan Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral su mənbəyi mövcuddur. Onlardan biri də Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində çağlayan eyniadlı mineral sudur ki, bu təbiət möcüzəsi bir çox xüsusiyyətləri ilə qiymətlidir. İlk növbədə, əvəzsiz süfrə suyu olan “Badamlı” həm də müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ateroskleroz, ürək, xərçəng, diabet, mədə yarası, bronxial-astma, pnevmoniya, bruselyoz xəstəlikləri, eyni zamanda immunitetin zəifləməsi, infeksiyalara yoluxma, müxtəlif orqanların, o cümlədən dərinin iltihabı zamanı müalicə məqsədilə istifadə edilir.***

“Badamlı” mineral bulağı ötən əsrin ortalarında aşkar edilmişdir. 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında bu ərazidə elmi-tədqiqat işləri aparılaraq müxtəlif kimyəvi tərkibli mineral sular sırasında 5 nömrəli bulaqdan istifadə olunması məqsədəuyğun hesab edilmişdir. 1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə cəmi 30-40 litr su istehsalına başlanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müəssisənin fəaliyyəti genişləndirilmiş, Almaniya və Çexoslovakiya istehsalı olan yeni texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücü daha da artırılmışdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr, iqtisadi tənəzzül bu müəssisənin də fəaliyyətinin dayanmasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf bütün sahələr kimi, sahibkarlıq fəaliyyətinin də genişləndirilməsinə böyük imkanlar açmışdır. Muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarmış, 2004-cü ildə özəlləşdirilən müəssisədə keyfiyyətli məhsul istehsalına başlanılmışdır. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat vermişdir.

Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9590, istehsal sahəsi isə 3600 kvadratmetr olan yeni istehsal müəssisəsi ölkə başçısı cənab İlham Əliyevin 2009-cu ilin 3-4 avqust tarixlərində muxtar respublikaya səfəri zamanı istifadəyə verilmişdir. Burada ikimərtəbəli inzibati bina tikilmiş, yeməkxana, istehsal və digər yardımçı sexlər, anbar, karbon qazı və kompressor stansiyası yaradılmışdır. Müasir texnoloji avadanlıqlarla təchiz olunmuş zavod daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edərək rəqabətqabiliyyətli müəssisəyə çevrilmişdir.

Müəssisəyə iki boru xətti çəkilmişdir. Qazlı mineral süfrə suyunu “Badamlı” yatağından nəql edən xəttin uzunluğu 25 kilometr, qazsız süfrə suyu istehsalı üçün Batabat-Salvartı yaylağından çəkilən boru xəttinin uzunluğu isə 35 kilometrdir.

Mineral suyun butulkalara doldurulması üçün istehsal sahəsində Fransanın “SİDEL” şirkətinin istehsalı olan avadanlıqlar quraşdırılmışdır. Müəssisənin sexlərində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur. Plastik butulkalar və qapaqlar üçün 2011-ci ilin fevral ayında istifadəyə verilmiş “Gəmiqaya Plastmas Kapsul və Qapaq” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarından istifadə edilir.

Zavodda məhsulun keyfiyyətinə ciddi nəzarət olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulmuşdur. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bunun nəticəsidir ki, “Badamlı” mineral suyu keçirilən beynəlxalq sərgilərdə yüksək qiymətləndirilir. Məhsulun keyfiyyətinin yüksək olması müəssisəni alıcı problemi ilə üzləşdirmir. Zavodda tələbata uyğun olaraq, 0,5, 1, 1,5 litrlik plastmas butulkalarda qazlı və qazsız, 0,3, 0,6 litrlik şüşə butulkalarda qazlı, 5 və 19 litrlik plastmas taralarda qazsız olmaqla, ümumilikdə, cari ilin ötən dövründə 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz çox – 1 milyon 397 min ədəd yuxarıda göstərilən taralarda su istehsal edilmiş, 274 min ədədi muxtar respublika ərazisində, 977 min 900 ədədi Bakı şəhərində və ölkəmizin müxtəlif bölgələrində satışa çıxarılmışdır. “Badamlı” mineral süfrə suyunun muxtar respublika ərazisində satışı “Gəmiqaya Bərəkət Bazarlama” MMC, Bakı şəhərində və ölkəmizin digər regionlarında isə “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının Bakı, Gəncə və Salyan Satış mərkəzləri vasitəsilə həyata keçirilir. İstehsal olunan məhsulun ticarət obyektlərinə vaxtında çatdırılması da diqqət mərkəzində saxlanılmış, müəssisəyə Almaniya istehsalı olan “Mercedes-Benz Axor” markalı yük avtomobilləri alınmışdır. Həmçinin Avropa ölkələrində və digər xarici ölkələrdə bu əvəzsiz təbii sərvətimizin satışını təmin etmək üçün möhkəm baza yaradılmışdır.




“Gəmiqaya Mineral Sular” MMC-də bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sistemi və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO-22000 və İSO-9001 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu da “Badamlı” mineral süfrə suyunun yüksəkkeyfiyyətli istehsalının göstəricisi və dünya bazarına girişinin təminatıdır. “Badamlı” mineral suyunun xarici ölkələrə ixrac olunması cari ildə də diqqət mərkəzində saxlanılmış, ilk dəfə olaraq 123 min 900 ədəd mineral su dünya bazarının mühüm mərkəzlərindən biri olan Dubayda satışa çıxarılmışdır. Həmçinin əvvəlki illərdə bağlanmış müqaviləyə uyğun olaraq, 21 min 200 ədəd mineral suyun Rusiya Federasiyasına göndərilməsi təmin edilmişdir. Qeyd edək ki, “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin iqtisadi əlaqələri daha da genişləndirilmiş, cari ilin ötən dövründə istehsal edilən “Badamlı” mineral süfrə suyunun 19,5 faizi muxtar respublika ərazisində satışa çıxarılmış, 70 faizi Bakı şəhərinə və müxtəlif regionlara, 9 faizi Birləşmiş Ərəb Əmirliklərinə, 1,5 faizi isə Rusiya Federasiyasına ixrac olunmuşdur.

“Badamlı” təbii mineral süfrə suyunun dünya bazarının mühüm mərkəzlərindən biri olan Dubaya və mineral sular ixracatçısı olan Rusiya bazarına çıxarılması biznes əlaqələrinin genişləndirilməsi ilə bağlıdırsa, bu qiymətli təbii sərvətimizin xarici bazarda özünəməxsus yer tutması və möhkəmlənməsi onun dünya standartlarına uyğun yüksəkkeyfiyyətli istehsalı və müalicəvi əhəmiyyətinin nəticəsidir.

**Kərəm HƏSƏNOV**

# 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə “İstedadlı uşaqlar” adlı festival keçirilib

*Dünən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə “İstedadlı uşaqlar” adlı festival keçirilib.*

Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət və Turizm nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən festivalda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə uşaqları təbrik edib, onlara xoşbəxt gələcək arzulayıb. Bildirib ki, hazırda muxtar respublika əhalisinin 35,8 faizini uşaqlar təşkil edir. Bu uşaqlar dövlətimizin böyük qayğısı ilə əhatə olunub.










Vurğulanıb ki, uşaqların sosial ehtiyaclarının hərtərəfli təmin edilməsi, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə və təhsil alaraq layiqli şəxsiyyət kimi yetişdirilməsi muxtar respublikada diqqət mərkəzində saxlanılır. Son 20 il ərzində məktəbəqədər, məktəbdənkənar müəssisələr, tam orta məktəb, musiqi məktəbləri üçün 200-dən çox yeni bina tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Uşaqların sağlamlığının, fiziki inkişafının təmin olunması üçün ciddi tədbirlər görüldüyünü qeyd edən Ramilə Seyidova bildirib ki, hazırda muxtar respublikada otuz mindən artıq uşaq idmanla məşğul olur, hər il onlarla uşaq idmanın müxtəlif sahələri üzrə ölkədaxili və beynəlxalq yarışların mükafatçısı və qalib adını qazanır.

Son illər sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların təhsilinin, reabilitasiyasının səmərəli təşkili də təmin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası uğurla başa çatıb. Ali Məclis Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilib. Bu qəbildən olan uşaqların cəmiyyətə inteqrasiyasını möhkəmləndirmək, məsafədən (distant) təhsilin əhatə dairəsini genişləndirmək, onların müasir informasiya texnologiyalarından istifadə imkanlarını artırmaq, təhsili ilə bağlı müvafiq pedaqoji kadrları hazırlamaq qarşıya vəzifə olaraq qoyulub. Ötən dövrdə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, defektoloji bölmə, audiokitabxana yaradılıb, təlim-bərpa otağı, psixoloji dəstək xidməti istifadəyə verilib. Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində bu qəbildən olan uşaqların təlim-tərbiyəsi, Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicə olunması təşkil edilir. Həmçinin yüzlərlə uşaq məktəbəqədər, məktəb və məktəbdənkənar təhsil müəssisələrinin dərnəklərinə cəlb olunur.

Muxtar respublikada uşaqların zövqünə uyğun, asanlıqla qavraya biləcəkləri uşaq ədəbiyyatının nəşri də prioritetlər sırasında olub, ötən dövr ərzində “Uşaqlar və Günəş” almanaxı, “Təmsillər”, “Şeir və hekayələr”, “Poema və pyeslər” adlı uşaq kitabları nəfis tərtibatla nəşr edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq “Gənc istedadların “Qızıl kitabı”nın yaradılması, 6 nəfər istedadlı uşağın adının bu kitaba salınması və onlara xüsusi təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir.

Ramilə Seyidova muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə onların valideynləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib.

Festivalda istedadlı uşaqların hazırladıqları əl işlərindən ibarət sərgi, uşaq ədəbiyyatının sərgisi və uşaq məhsulları istehsal edən sahibkarların məhsullarının sərgi-satışı təşkil olunub.

Festivalda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər”, Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzinin mahnı və rəqs ansamblları, Gənc Heydərçilərin, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının, Naxçıvan Dövlət Uşaq Teatrının istedadlı uşaqlarının çıxışları maraqla qarşılanıb.

Seçim təhsil, idman, incəsənət və dekorativ-tətbiqi sənət nominasiyaları üzrə aparılıb. Təhsil üzrə 20, idman üzrə 13, incəsənət üzrə 50, dekorativ-tətbiqi sənət üzrə 9 uşaq, 15 uşaq kollektivi iştirak edib. Festivalda adıçəkilən nominasiyalar üzrə ilin ən yaxşı 15 istedadlı uşağı və 5 istedadlı uşaq kollektivi müəyyənləşdirilib.

Festival iştirakçılarına təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

✍ **Sara ƏZİMOVA**

# Biryaşlı təhsil ocağı: Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey

## *Burada tədris yüksək səviyyədə qurulub*



***Cəmiyyətdə tez-tez işlədilən “təhsil almaq” ifadəsinə dilimiz çox öyrəşib. “Təhsil almaq” dedikdə fərdlərin cəmiyyətdə olan hər hansı sahəyə dair biliklərə yiyələnməsi kimi fikirlər yaranır nəzərimizdə. Bəs mütəxəssislər təhsil dedikdə nəyi nəzərdə tuturlar? Ümumiyyətlə “təhsil” kəlməsinin mənası nədir? Gəlin, elə buradan başlayaq…***

Təhsil insanın mənəvi siması olub, mədəniyyət, təlim-tərbiyə və mənəvi dəyərlərin təsiri altında formalaşır. Burada bilik həcmi əsas deyil, ondan sərbəst olaraq istifadə etmək keyfiyyətləri əsas sayılır. Göründüyü kimi, təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla onun siyasi-iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir. Ona görə də gələcəyini düşünən hər bir dövlət təhsilin inkişafına diqqət yetirməyi özünün prioritet vəzifəsi sayır. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması da bunun bariz ifadəsidir.

Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamında deyilir: ***“Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tədris avadanlıqları, o cümlədən kompüterlərlə, fənn laboratoriyaları və elektron lövhələrlə təmin olunması tədrisin səviyyəsini yüksəltməklə yanaşı, şagirdlərin texniki fənlərə marağını da artırmışdır. Texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılması üçün yeni tipli təhsil müəssisəsinin yaradılmasına ehtiyac vardır”.***

Bu günlərdə həmin təhsil ocağında olduq. Məktəbin direktoru Çingiz Rzayevlə burada yaradılmış şərait, tədrisin səviyyəsini yüksəltmək üçün həyata keçirilən tədbirlər barədə söhbət etdik. Müsahibim bildirdi ki, riyaziyyat və fizika fənlərinin tədrisinin məzmun və metodları ilə bağlı məsələlər araşdırılarkən prinsipial məsələ olan təhsilin psixopedaqoji əsaslarının tədqiq edilməsi və hansı prinsiplərə əsaslanaraq idarə olunması müəyyənləşməlidir. Bu halda əsas yük müəllimlərin üzərinə düşür. Bu fənləri tədris edən müəllimlərin fənni mükəmməl bilməsi, fənnin tədrisi metodikasının yeniləşdirilməsi və təkmilləşdirilməsi üçün yollar axtarması, ali texniki məktəblərdə riyaziyyat və fizikanın pedaqogikasının işlənilməsi və onun



əsas müddəalarının dərindən mənimsənilməsi günümüzün başlıca tələblərinə çevrilməlidir.

Öyrəndik ki, liseyin müəllimləri bu prinsipləri öz fəaliyyətlərində əsas götürürlər. Məlumat üçün bildirək ki, ilk olaraq, ötən il bu məktəbə 160 nəfər şagird qəbul edilib. Hər sinif 40 şagirdlik nəzərdə tutulub. Doğrudur, bir müddət sonra məktəbə uyğunlaşa bilməyən şagirdlər də olub. Bu səbəbdən də hal-hazırda 38 nəfər VII, 40 nəfər VIII, 40 nəfər IX, 32 nəfər X siniflərdə olmaqla, liseydə 150 şagird təhsil alır. Direktor, psixoloq, hərbi rəhbər, tədris işləri və profil üzrə direktor müavini daxil olmaqla, liseydə 22 nəfərdən ibarət pedaqoji heyət onların təlim-tərbiyəsi ilə məşğul olur. Burada I qrup ixtisaslara hazırlaşan şagirdlərin sayı daha çoxdur.

Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrindən şagirdlərin təhsil aldığı liseydə Ordubad məktəbliləri çoxluq təşkil edir. Lisey kompüterlərlə, fənn laboratoriyaları və elektron lövhələrlə təmin edilib.

Burada yaradılan şəraitlə yaxından tanış olduq. Şagirdlərin müvəqqəti olaraq yaşadıqları yataqxana, məktəbin yeməkxanası yüksək səviyyədədir. Qeyd edək ki, liseydə şagirdlər dövlət hesabına təhsil alırlar. Bu isə ailələrə dəstək baxımından çox əhəmiyyətli və uğurlu addımdır.

Çingiz müəllim onu da vurğuladı ki, riyaziyyat və fizikanın tədrisi zamanı kompüter texnologiyasının tətbiqi fənlərin keyfiyyətli öyrənilməsi üçün imkan yaratmaqla bərabər, həm də konkret məsələlərin həllində yeni bacarıq və vərdişlərin yaranmasına səbəb olur. İnformasiya texnologiyaları vasitəsilə qazanılan bacarıq və vərdişlər şagirdlərin daha çevik düşünməsinə, məntiqi təfəkkürün inkişafına təkan verir, öyrənəni yaradıcı şəxsiyyət kimi formalaşdırır. Tədris prosesində tətbiq edilən bu üsulla gələcək mütəxəssislərin informasiyanı yüksək səviyyədə qəbul etməsinə və lazımi məqamda ondan səmərəli istifadəsinə geniş imkanlar açır. Bu baxımdan da liseydə hərtərəfli şərait yaradılıb.

Lisey az müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, artıq bir sıra uğurlar əldə edib. Liseyin şagirdi İbrahim Qasımov muxtar respublikada sınaq imtahanında ən yüksək nəticəni qazanıb. O, 695 bal toplayıb. “Kitab bilik mənbəyidir” adlı müsabiqədə şagirdlərdən biri diploma təltif olunub.

İnanırıq ki, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı, savadlı kadrların yetişdirilməsi baxımından əhəmiyyətli təhsil məbədinə çevriləcəkdir. Lisey üçün tikilən yeni tədris korpusları, müasir yataqxana binası burada təhsilin keyfiyyətinin daha da yüksəldilməsinə səbəb olacaq. Cəmiyyət nə qədər çox savadlı və erudisiyalı olsa, o, bir o qədər də özünü təmin edən, daha ləyaqətli və hər cür gözlənilməz hallardan sığortalanmış olacaqdır. Ona görə də bu məsələlərin hamısı bir-biri ilə sıx bağlıdır. Təhsil gələcəyə açılan pəncərədir. Təhsil millətin inkişafı üçün təməl rolunu oynayır. Gərək təməlimizi sağlam ataq.

✍ **Nərgiz İSMAYILOVA**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Kəlağayı

## *Sahib olduğumuz dəyərli incilərimizi qorumalı, onları öz məişətimizdə yaşatmalıyıq*



***Azərbaycanda ipəkdən hazırlanan məmulatların içərisində kəlağayı xüsusi yer tutur. Ölkəmizin qərb zonasında onu "çarqat" da adlandırırlar. Bu milli baş örtüyü müasir dövrdə yurdumuzun bəzi bölgələrində istehsal edilsə də, onun vətəni İsmayıllı rayonunun Basqal qəsəbəsidir.***

Kəlağayıdan Şərq ölkələrində istifadə olunsa da, o, Azərbaycandan eksport edilmişdir. Ən vacib məqamlardan biri də məhz elə budur ki, kəlağayı yalnız bizə məxsus olub, bizim mənəvi dəyərlərimiz sırasında yer alıb.

Adına qədim dövrlərin rayihəsi hopmuş kəlağayı Azərbaycan qadınlarının ənənəvi geyimlərində artıq üç əsrdən çoxdur ki, yer alan unikal bir elementdir. Qaynar rənglər və mumla naxışların salınması üçün istifadə olunan forma və matrisaların isə ikiəsrlik tarixi var.

Xam ipəkdən hazırlanan kəlağayı əvvəlcə bişirilir, naxışlanır, sonra isə boyanır. Onun haşiyəsi basmanaxış üsulu ilə həndəsi və ya nəbati naxışlarla bəzədilir. Hər bölgənin kəlağayısı digərindən, əsasən, haşiyəsindəki ornamentlərə görə fərqlənir. Kəlağayıların boyanmasında süni boyalardan az, təbii boyalardan çox istifadə olunur.

Kəlağayılara xüsusi gözəllik qatan butanın isə öz mənası var. Belə ki, keçmişdə butadan möhür kimi istifadə olunurdu. Yüksək səviyyəli adamların hər birinin şəxsi möhürü olurmuş.

Ölçü və rənglərinə görə müxtəlif olan kəlağayıları keçmişdə yaşlı qadınlar çalma kimi bağlayar, cavan qızlar isə örpək kimi örtərmişlər. Milli geyim atributlarından olan papaq qədimdən namus, qeyrət, əzəmət, mərdlik simvolu olduğu kimi, kəlağayı da qadın baş örtüyü olmaqla yanaşı, gözəllik, zəriflik rəmzidir.

Kəlağayıya həkk olunmuş naxışların müxtəlif formaları yerli əhalinin gündəlik məişətinə də sirayət edib. Şirniyyat və çörək məmulatlarında, türbə və qəbirüstü abidələrdə həmin naxışlardan bu gün də istifadə olunmaqdadır. Naxışlar arasında ən çox butalardan istifadə edilir.

Sənətkarlar və mütəxəssislər kəlağayının altı əsas xüsusiyyətini vurğulayırlar: mütləq ipəkdən hazırlanmalıdır; kvadrat formada olmalıdır; konkret ölçüləri olmalıdır; bəzədilməlidir; basmanaxış üsulu ilə naxışlanmalıdır və nəhayət, rəngli olmalıdır. Bu altı şərtdən biri yoxdursa, deməli, həmin örtük kəlağayı deyil.

Kəlağayını Azərbaycanda vaxtilə yeni qurulan ailənin təməli hesab edirdilər. Belə ki, kəlağayını oğlana bağışlayan qız eşqinə ömürlük sadiq qalacağına and içərmiş. Yaxud da elçilik mərasimində oğlan tərəfdən olan qadınlardan biri qırmızı kəlağayıya bürünmüş nişan üzüyünü qız evinə təqdim edərdi. O həmçinin toya qonaq gələn qadınların da xonçasında ən dəyərli hədiyyə hesab olunardı.

*Əziziyəm, hər aydan,*
*Hər fəsildən, hər aydan,*
*Kəlağayı örtən gəlin,*
*Gözəldi Gündən, Aydan.*

Yuxarıda qeyd etdiyimiz bayatıdan da aydın olur ki, vaxtilə təzə gəlinlərin kəlağayı örtməsi adət halını almış, folklor nümunəmizdə, xüsusilə də dildən-dilə keçən bayatılarımızda bu baş örtüyünün onlara xüsusi gözəllik verdiyi vurğulanmışdır. Bu adət bu gün də bəzi bölgələrimizdə öz aktuallığını qoruyub saxlamaqdadır.

Qara rəngli kəlağayı ilə dünyasını dəyişən insanın üstü örtülərmiş. Həmçinin sülhsevər missiyanı da özündə yaşadan bu baş örtüyünü münaqişə zamanı hər hansı bir qadın başından açıb yerə atarsa, dava edən şəxs dərhal savaşı dayandırarmış. Göründüyü kimi, keçmişdə kəlağayıya hörmət qadına olan ehtiram qədər yüksəkdə olub. Hətta istifadə etməsələr də belə, insanlar onu evin ən əziz əşyası kimi qoruyub saxlayardılar.

Folklorumuzun dərinliklərində adına rastladığımız bu baş örtüyü YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına əlavə olunmuşdur.

Qeyd edək ki, neçə-neçə xalq sənətinin təşəkkül tapdığı, formalaşdığı Naxçıvan torpağında da kəlağayılara xüsusi hörmət, ehtiram bəslənmişdir. Nənə və babalarımızın söylədiklərinə görə, bir zamanlar burada kəlağayı toxuma sənəti mövcud olsa da, sonralar bu sənət sıradan çıxmış, unudulmuşdur. Lakin misilsiz Ordubad ipəyindən hazırlanan bu milli baş geyimimiz yaşlı insanların yaddaşlarında özünə əbədi bir iz qoymuşdur. Ordubadda kəlağayıdan, əsasən, XIX əsr və XX əsrin ortalarında istifadə olunmuşdur. Hazırda evlərdə nənələrin sandıqlarında bu qədim kəlağayılardan saxlayanlar da var.

Ordubad rayon sakini, 68 yaşlı Xanım nənə gənclik illərindən bu baş örtüyündən bu günə kimi istifadə etdiyini bildirdi. O, bu örpəyi ömrü çatdığı qədər də yaşadacağını vurğuladı. Xanım nənə qədim ənənələrimizin beşiyi hesab olunan bir bölgədə, həmçinin üzvü olduğu ailədə kəlağayıdan istifadə olunmamasından narazılıq etdi.

Bu da qeyd olunmalıdır ki, kəlağayılarımızdan bu gün, sadəcə, yaşlı təbəqənin nümayəndələri istifadə edirlər. Digər qadınlarımız isə müxtəlif ölkələrin istehsalı olan baş örtüklərini seçirlər. Bəs milli geyimlərimizdən uzaqlaşmaq, onları xarici məhsullarla əvəz etmək nə dərəcədə düzgündür? Naxışlarında mentalitetimizi əks etdirən ornamentlərin həkk olunduğu kəlağayılardan istifadə etməli, onu itib-batmağa qoymamalıyıq. Bir azərbaycanlı olaraq hər birimiz düşünməliyik ki, milliliyimizin rəmzi olan kəlağayını biz yaşatmasaq, kim yaşadacaq? Mahiyyətini dərindən dərk etdiyimiz milli və maddi dəyərimizin bir nümunəsini tanıtmaq missiyasını necə həyata keçirə bilərik? Unutmayaq, hər bir xalq öz mədəniyyəti, mənəvi dəyərləri ilə tanınır. Sahib olduğumuz tarix və dəyərli incilərimizi qorumalı, onları öz məişətimizdə yaşatmalıyıq.

✍ **Fatma BABAYEVA**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında keçirilən aksiyalar davam etdirilir.*



## "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir" devizi altında keçirilən aksiyalar davam etdirilir



Dünən Kəngərli, Şərur və Sədərək rayonlarında məktəblilərin iştirakı ilə maarifləndirici tədbir və güləkmə aksiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Yeni Azərbaycan Partiyasının adıçəkilən rayon təşkilatlarının Heydər Əliyev adına Gənclər birlikləri tərəfindən keçirilən tədbirə Kəngərli rayonundan start verilib.

Rayonun Qıvraq qəsəbəsindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında təşkil edilən tədbirdə Gənclər və İdman İdarəsinin rəisi Avtandil Cəfərov çıxış edərək tədbirin əhəmiyyətindən danışıb, təbiətin mühafizəsində və zənginləşdirilməsində uşaq və yeniyetmələrin, eləcə də gənclərin rolundan bəhs edib.

Sonra güləkmə aksiyasına başlanılıb. Aksiya iştirakçıları müxtəlif gül və çiçək, eləcə də dekorativ bitki şitillərini parkın ərazisinə əkib, gülkarlıqlara qulluq ediblər.

Şərur rayonunda bu qəbildən aksiya Şərur şəhərindəki Heydər Parkında, Sədərək rayonunda isə rayon mərkəzi Heydərabad qəsəbəsindəki Heydər Parkında keçirilib. Tədbirlərdə uşaqların təbiətə sevgisi elə aksiyanın başlandığı ilk dəqiqələrdən müşahidə olunurdu. Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Fatma Mehdiyeva, Sədərək rayon məktəblisi Şəhla Rzalı ilə söhbətimizdə dedilər ki, bu tədbirdə muxtar respublikanın, eləcə də yaşadıqları bölgənin təbiəti, bitki örtüyü haqda məlumat alıblar, müxtəlif güllərin əkilməsi və onlara qulluq qaydalarını öyrəniblər.

Məlumat üçün bildirək ki, bu gün Uzunoba Su Anbarı ətrafında gənclərin iştirakı ilə "Hərəmiz bir ağac əkək" aksiyası keçiriləcək.

✍ **Səbuhi HÜSEYNOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti kənd xidmət mərkəzlərində mövcud olan vakansiyaların kadrlarla təmin edilməsi üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzində qadın bərbəri, bərbər və dərzi peşələri üzrə kurslar təşkil edir.

Tədrisin müddəti qadın bərbəri və bərbər kursunda 2, dərzi kursunda isə 3 aydır.

Tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer | | |
|---|---|---|---|---|
| | | Qadın bərbəri | Bərbər | Dərzi |
| | ***Naxçıvan şəhəri üzrə*** | | | |
| 1. | Qaraçuq | 2 | - | - |
| | **Cəmi:** | **2** | - | - |
| | ***Şərur rayonu üzrə*** | | | |
| 1. | Muğancıq-Mehrab | 1 | - | - |
| 2. | Qarxun | 1 | - | 1 |
| 3. | Yuxarı Aralıq | 1 | 1 | 1 |
| 4. | Püsyan | 2 | 2 | - |
| 5. | Xanlıqlar | 1 | 1 | - |
| 6. | Aşağı Daşarx | 1 | - | - |
| 7. | Danyeri | 1 | 1 | 1 |
| 8. | Çomaxtur | 1 | - | - |
| 9. | Diyadin | - | 1 | - |
| 10. | Axura | 1 | - | - |
| 11. | Aşağı Yaycı | 1 | - | 1 |
| 12. | Şahbulaq | - | 1 | - |
| 13. | Mahmudkənd | 1 | - | - |
| 14. | Cəlilkənd | - | 1 | 1 |
| 15. | Qorçulu | 1 | - | - |
| 16. | Yengicə | 2 | - | - |
| 17. | Yuxarı Daşarx | 1 | 1 | - |
| 18. | Sərxanlı | 1 | - | - |
| 19. | Dəmirçi | 1 | - | - |
| 20. | Maxta | 1 | - | - |
| 21. | Kürkənd | 1 | - | - |
| 22. | Kürçülü | 1 | - | - |
| | **Cəmi:** | **21** | **9** | **5** |
| | ***Babək rayonu üzrə*** | | | |
| 1. | Cəhri | - | - | 1 |
| 2. | Qahab | 1 | 1 | 1 |
| 3. | Kərimbəyli | - | 1 | - |
| 4. | Şıxmahmud | 1 | - | 1 |
| | **Cəmi:** | **2** | **2** | **3** |
| | ***Ordubad rayonu üzrə*** | | | |
| 1. | Nəsirvaz | 1 | 1 | - |
| 2. | Nürgüt | 1 | 1 | - |
| 3. | Xurs | - | 1 | - |
| 4. | Bist | 1 | 1 | - |
| 5. | Behrud | 1 | - | - |
| 6. | Parağa | - | 1 | - |
| 7. | Çənnəb | 1 | - | - |
| 8. | Yuxarı Əylis | 1 | - | - |
| 9. | Ələhi | - | 1 | - |
| 10. | Biləv | 1 | - | - |
| | **Cəmi:** | **7** | **6** | - |
| | ***Culfa rayonu üzrə*** | | | |
| 1. | Ləkətağ | 1 | - | - |
| 2. | Teyvaz | 1 | - | - |
| 3. | Boyəhməd | - | 1 | - |
| 4. | Gal | - | 1 | - |
| 5. | Qızılca | - | 1 | - |
| 6. | Saltaq | - | 1 | - |
| | **Cəmi:** | **2** | **4** | - |
| | ***Şahbuz rayonu üzrə*** | | | |
| 1. | Sələsüz | 1 | 1 | - |
| 2. | Badamlı | - | 1 | 1 |
| 3. | Keçili | 1 | - | - |
| 4. | Nursu | 1 | 1 | - |
| 5. | Kolanı | - | 1 | 1 |
| 6. | Ayrınc | - | 1 | - |
| 7. | Kükü | 1 | - | - |
| 8. | Güney Qışlaq | 1 | - | - |
| 9. | Qızıl Qışlaq | 1 | 1 | - |
| 10. | Biçənək | - | 1 | 1 |
| | **Cəmi:** | **6** | **7** | **3** |
| | ***Kəngərli rayonu üzrə*** | | | |
| 1. | Qarabağlar | 1 | 1 | - |
| 2. | Çalxanqala | 1 | - | 1 |
| 3. | Təzəkənd | - | 1 | - |
| 4. | Xok | 1 | 2 | - |
| 5. | Qabıllı | 1 | - | - |
| 6. | Şahtaxtı | 2 | - | 1 |
| 7. | Yeni Kərki | 1 | 1 | - |
| | **Cəmi:** | **7** | **5** | **2** |
| | ***Sədərək rayonu üzrə*** | | | |
| 1. | Heydərabad qəsəbəsi | - | 1 | - |
| | **Cəmi:** | - | **1** | - |

Əqli və fiziki potensialları qadın bərbəri, bərbər və dərzi peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər.

Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan vakansiyalar üzrə işlə təmin olunacaqlar.

Peşə hazırlığı kurslarında iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış*

***Əlaqə telefonu: 545-32-33***

## Məzun günü keçirilib

*Naxçıvan Dövlət Universitetində ənənəvi Məzun günü keçirilib. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək elm və təhsilin inkişafından, muxtar respublikada yerli kadr potensialının gücləndirilməsinə göstərilən dövlət qayğısından danışıb.*

Rektor universitetin 2015-2016-cı tədris ilindəki nailiyyətlərindən bəhs edərək bildirib ki, cari tədris ilində universitetdə bakalavr və magistratura pillələri üzrə 1451 gənc öz ali təhsilini başa vurub. Saleh Məhərrəmov məzunları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Maraqlı ssenari əsasında hazırlanan Məzun günündə universitetin inkişaf yoluna, tələbələrin elm və təhsildə, ictimai işlərdəki nailiyyətlərinə nəzər salınıb. Tədbir İncəsənət fakültəsinin, Tələbə Teatr Studiyasının hazırladığı rəngarəng konsert proqramı ilə davam edib. İncəsənət fakültəsinin xalq çalğı alətləri ansamblının müşayiəti ilə mahnı və şeirlər ifa olunub.

Bayram əhval-ruhiyyəli tədbirin sonunda məzunlar səhnəyə dəvət olunub, "Tələbəlik illəri" mahnısı səsləndirilib, xatirə şəkilləri çəkdirilib.

**Mehriban SULTAN**

### *İtmişdir*

Həsənov Rauf Rafael oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Rauf Rafael oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 425